*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 124-131*
https://doi.org/10.62837/2024.4.124

**ADBTIA**
**AYNUR TURABOVA**
**Bakı Fətəli Xan Xoyski pr.98**
**aynurturabova77@gmail.com**

# ZOONİM VƏ FİTONİMLƏRİN LEKSİK SİSTEMDƏ YERİ

**Xülasə**

Dünya xalqlarının mədəniyyətində, etik- fəlsəfi baxışlarında və folklorunda bir-birinə bənzəyən və ya bir-birinə oxşar görünən xüsusiyyətlər kifayət qədərdir. Bu cür bənzərliklərin öz izini əks etdirdiyi faktlardan biri də fitonim və zoonimlər - bitki və heyvan adlarıdır. Dünyada bitki və heyvan adlarından istifadə etməyən demək olar ki, heç bir dil və xalq yoxdur.

Azərbaycan dilində olduğu kimi ingilis dilinin də lüğət tərkibi öz inkişafı boyunca müəyyən ekstralinqvistik faktorlarla sıx şəkildə qarşılıqlı əlaqədə olmuşdur. Bu faktorlar ölkənin təbii-coğrafi şəraitindən başlamış, flora və faunaya kimi çox geniş reallıqları əks etdirir.

Bu səbəbdən də ingilis və Azərbaycan dillərinin lüğət tərkibində spesifik yer alan floristik və zooloji leksikanın öyrənilməsi mühim əhəmiyyət daşıyır. Zoonimlər və fitonimlər dilin müvafiq olaraq zooloji və fitonimik leksikasını təşkil edirlər. Qeyd edək ki, bitki və heyvan adları dilçiliyin müstəqil sahəsi kimi inkişaf edən onomastikada öyrənilir. Fitonim və zoonimlər digər onomastik vahidlərlə eyni cərgədə dayanır. Onlar digər onomastik vahidləri kimi emosionallığın, ifadəliliyin və ekspressivliyin ötürülməsinə xidmət edir. Bu baxımdan onların bədii perspektivlərinin araşdırması tədqiqat işi üçün olduqca əhəmiyyətlidir.

Azərbaycan dilçiliyində, habelə rus və avropa dilçiliyində zoonimlərlə yanaşı fitonimlərin nəzəri məsələləri ilə bağlı bir çox fikirlər, müddəalar irəli sürülmüş, bu sahədə biri-birindən fərqli konsepsiyalar yaranmışdır. Fitonimlərin daha çox tədqiq ediləni dərman bitkiləridir ki, onlardan uzun illərdən bəri müəyyən xəstəliklərin müalicəsində istifadə olunur. Məsələn: clove (mixək), anise(raziyanə), mint (nanə), juniper (ardıc), rhyme (kəklikotu), dill (şüyüd), althala (gülxətmi), cynamon (darçın), urtica (gicitkən), caraway (zirə) və s. Hazırda fitonimlərin tədqiqi sahəsi olduqca genişlənmişdir. Artıq dilçilikdə bu sahə ilə əlaqədar xeyli elmi əsərlər yazılmışdır. Fitonim yunan mənşəli söz olub "fitos"-bitki və "onim"-ad sözlərinin birləşməsindən yaranmışdır. Fitonimlər və onların xüsusiyyətlərinin öyrənilməsi dilçilik elmində diqqəti cəlb edən mühim elmi-tədqiqat sahələrindən biridir. Dildəki hər bir ad ictimai-tarixi inkişafın məhsuludur.

**Açar sözlər:**zoomimlər, fitonimlər, zoometaforiya, zoosemiya, onomastika ,zoomorfiya.

Hər hansı bir dilin leksik tərkibində yer alan sözlərin fərqli və rangarəng mənalarda işlənməsi həmin dil daşıyıcılarının məişəti, inkişaf tarixi, elmi və mədəni yaradıcılığı ilə sıx bağlıdır. Bildiyimiz kimi, bizi əhatə edən real aləmdə əşya, hadisə, məfhum çox, onları ifadə edən sözlər isə azdır. Bu səbəbdən də bəzən bir söz, bir

neçə məfhum, hadisə, anlayış ifadə etməli olur. Ilk öncə, Azərbaycan dilçiliyində zoonimlərin araşdırılması və linqvistik təhlili prosesində müəyyən terminlərin mənasını izah etmək, problemin müxtəlif sahələrini aydınlaşdırmaq baxımından əhəmiyyət daşıyır.Məlumdur ki, suda və quruda yaşayanlar, müxtəlif sürünənlər, balıqlar və həşəratlar ayrı-ayrı elm sahələrinin tədqiqat obyektidir. Bu kimi səbəblərdən dolayı zoonimiya sahəsində terminlərin istifadəsində müəyyən pərakəndəlik müşahidə olunur. Aydındır ki "zoo" sözü yunan dilində heyvan və ya heyvanlar aləmi mənasını ifadə edir. Bu morfem ilə başlayan bir sıra mürəkkəb leksik vahidlər vardır ki sözün ifadə etdiyi anlayışın heyvanlar aləminə aidliyini göstərir: zoopark ,zoomorfiya, zoologiya, zoonimiya, zoogigiyena, zoocoğrafiya, zoobaytar, zoometafora, zooçoğrafiya, zoopsixologiya və s. (1, səh.335).

Eyni bir müəllif həm "zoonimiya" həm də "zoonimika" terminlərindən istifadə edir (2, səh.14-20 və 3, səh. 69-84) digər bir tədqiqatçı isə "zoonimlər" adı altında "zootoponimlər" haqqında bəhs edir (4, səh 77). Bundan başqa "zoonimlər" terminini xüsusi adlara, onomoastikaya şamil edib, heyvan və quş adlarını göstərmək üçün "ümumi zoonimlər" terminini işlədənlər də vardır. (5, səh.10).Xüsusi zoonimlərə "zooantroponimləri" (Turac, Ceyran, Kəklik, Maral, Aslan, Şahin, Tərlan, Durna, Bəbir və s.), zoohidronimləri (Atbulaq, Maralgöl, Ceyranbatan və s.), zooləqəbləri (Qatır Məmməd, Qurd Alı, Camış Səkinə, Çəpiş Züleyxa, Çaqqal Rasim, Tülkü Sənan və s.), zootoponimləri (Lökbatan, Dəvəçi, Nərdaran və s.) və xüsusiləşmiş heyvan adlarını aid edir.

Ümumi dilçilildə insanı səciyyələndirmək üçün istifadə olunan heyvan, quş, həşərat adlarının məcazi forması tematik olaraq "zoomorfiya"(zoomorfizm), "zoosemiya"(zoosemizm) və ya "zoometaforiya"(zoometaforizm) terminləri altında ümumiləşdirilir. Burada "zoosemiya" sözü hərfi və məcazi anlamda "heyvan adları" deməkdir və geniş mənada heyvanlar aləmi mövzusunu əhatə edir. "Zoomorfiya" dedikdə heyvan adlarının hərfi mənası ilə yaranmış və insanın obrazlı xarakterizə edilməsi vəzifəsində çıxış edən metaforalar başa düşülür. Zoometaforizmlər haqqında və onunla bağlı məsələlərlə Qutman E.A, Həsənov H.Ə, Riçardson İ.A, Mukimova N.R, Lyasota Y.L, Əfəndiyeva T.A, Litvin F.A kimi bir sıra ciddi tədqiqatçılar məşğul olmuşlar. Dünyanın bir sıra aparıcı dillərində heyvan adları insanı obrazlı şəkildə səciyyələndirmək məqsədilə geniş surətdə işlədilir. Tutuşdurma - bir sıra dillərdə zoometaforizmlərin müqayisəli formada tədqiqi və təsviri, habelə onların spesifik leksik-semantik xüsusiyyətlərini ətraflı izah etməyə imkan yaradırZoometaforizmlərdə xalqların sevinci, kədəri, müdrikliyi, nifrəti, məhəbbəti, mübarizliyi, dözümlüyü, başqa sözlə, bir sıra müsbət və ya mənfi keyfiyyətləri öz əksini tapır.

Zoometaforizmlər sahəsindəki elmi tədqiqat işləri və onların təhlili bizə Azərbaycan və ingilis dillərinin tarixində müşahidə olunan spesifik xüsusiyyətləri, onlar arasında müəyyən oxşar və fərqli cəhətləri müqayisə yolu ilə ayırd etməyə şərait yaradır.Hər bir zoometaforizmin müəyyən bir yaranma tarixi vardır; bəziləri isə daha qədim olub, bəşəriyyətin və cəmiyyətin lap ibtidai inkişaf dövrünə təsadüf edir. Hələ qədim zamanlarda animalizm insanların dünyaya baxışının əks etdirirdi.

Elə həmin dövrlərdə müəyyən heyvan obrazlarında konkretləşən erkən ümumiləşmələr - simvollar meydana gəlir. Azərbaycan ərazisində qayaüstü animalizmlər də bu fikri bir daha təsdiqləyir. Sonralar tədricən vəhşi heyvanlar əhliləşdirildikcə simvollaşmanın yeni formaları əmələ gəldi. Aydındır ki, din və mövhumatla əlaqəli bir sıra inanclar, inamlar və s. öz köklərini məhz cəmiyyətin inkişafının ibtidai dövründən götürmüşdür. Xalqın tarixi ilə dilin tarixi arasında möhkəm bağlılıq olduğundan bütün bunlar dildə də öz əksini tapmışdır.

İngilis dilində zoometaforzimlərin özünəməxsus quruluş xüsusiyyətləri vardır. Tədqiqatçılardan Y.L.Lyasota ingilis dilində mövcud olan leksik vahidlərin üzvlərə ayrılışını aşağıdakı şəkildə sxemləşdirir:

A. Leksemlər

1. Kök söz: cat (pişik), dog (it), bird (quş)

2. Törəmə söz (affiks söz və ya konvensiya olunmuş söz): cattish (hirsli, qəzəbli), to dog (izləmək)

3. Mürəkkəb söz (kök sözlərin birləşməsi): jail-bird (məhbus), dog-life (it yaşayışı)

4. Mürəkkəb-törəmə söz (köksözlərin birləşməsi + affiksasiya): bird-feathered (eyni lələkli quşlar), dog-training (it-təlimi)

5. Frazeoloji qovuşma birləşməsi: bird in the hand (sərçə olsun əlimdə olsun), dog in the manner (nə yardan doyur, nə Ildən qoyur)

B. Sintaksemalar:

1. Vahid frazeoloji birləşmə: to buy a cat in the poke (torbada pişik almaq = kəsilməmiş qarpız almaq)

2. Atalar sözü: Cat's away, the mice will play (pişik olmayanda siçanlar ova çıxır) (6, səh.42)

Tədqiqatçı "B" bəndini "sintaksemalar" olaraq adlandırsa da burada leksik-semantik səviyyəyə keçmiş frazeoloji vahidlər də yer almışdır.

Y.L.Lyasotanın kök söz adlandırdığı sadə quruluşlu zoometaforizmlərdən morfoloji üsulla və ya konversiya yolu ilə düzəltmə strukturlu zoometaforizmlər əmələ gələ bilər. Morfoloji üsulla söz yaradıcılığında ümumi isimlər xüsusi isimlərə çevrilir. Beləliklə morfemlər arasında semantik inteqrasiya yaranır, söz iki və ya daha artıq linqvistik mənanın toplusuna çevrilir.

Biz zoofrazeologizmlərdə polisemiya hallarına da rast gəlirik. Polisemik frazeologizmlərin bir birilə əlaqəsi olan iki mənası olur. Məsələn: to cook one's own goose - 1) kiməsə maneçilik törətmək 2) səhv etmək 3) cəzalandırmaq 4) işini bitirmək və s. Zoofrazeologizmlərin antonimlik münasibətləri dildə nisbətən az müşahidə olunur: to be as merry as cricket (cırcırama kimi şən olmaq) və to be bearish (ayı kimi qaraqabaq olmaq). Göründüyü kimi, zoofrazeologizmlərin antonimliyi müxtəlif heyvan adlarının iştirakı ilə yaranır lakin çox az hallarda eyni zoonim antonimlik yarada bilir. Məsələn bayquş – owl zoonimi ingilis dilində həm müdrik həm də səfeh mənasında işlənir: wise as an owl - bayquş kimi müdrik və silly as an owl (bayquş kimi axmaq).Zoonimlər termini dildəki bütün xüsusi adlardan bəhs edən onomastika sahəsinə aid edilir. Zoonimlər toponim, antroponim, hidronim

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 124-131*
və kosmonimlərin adlandırlmasında fəal iştirak edirlər. İnsanlar hələ qədim zamanlardan müxtəlif heyvanları, quşları əhliləşdirməyə nail olmuş, müsbət keyfiyyətli heyvan və quşlara xas əlamət və xüsusiyyətlər məcazi mənada insanlara da şamil edilmiş, zoonimlərinköməyi ilə başqa onomastik vahidlər yaranmışdır. Məsələn öz sevimli heyvanlarına müxtəlif adlar qoymuşlar: Mərcan, Alagöz, Məstan, Alabaş və s.

Bundan başqa ingilis dilində sadə zoonimlərdən sifətlərin yaranması da müşahidə edilir. Zooloji morfemlərdən düzələn ən çox yayılmış şəkilçi ish-dir: cattish - acıqlı, peacockish - lovğa, wolfish - acgöz, sheepish - qorxaq, foxish - hiyləgər, assish - axmaq və s. Onu da qeyd edə bilərik ki, yuxarıda qeyd olunan sifətlərdən -ly şəkilçisinin köməyi ilə düzəltmə zərflər yarana bilir: wolfishly - acgözlüklə, cattishly - qəzəblə, sheepishly - qorxaqcasına və s.

Dolayı yolla -ness, -hood, -ship şəkilçilərinin köməyi ilə həmin sifətlərdən ismi zoometamorfizmlər də yarana bilir: beeishness - zəhmətsevərlik, lionhood - alicənablıq, donkeyship - axmaqlıq və s. Deyilənlərdən məlum olur ki, ingilis zoometamorfiyasında şəkilçi və yaxud morfoloji üsulla söz yaradıcılığı geniş yer tutur."Pet" sözü ingilis dilindən hərfi tərcümədə "sevimli ev heyvanı" mənasını ifadə edir. Bu terminin nitqə daxil olması amerikalı terapevt Boris Levinsonun adı ilə bağlıdır. Belə ki, azyaşlı xəstələrin qəbulu zamanı uşaqların onun yanında olan itinə müsbət reaksiyasını hiss etdikdən sonra bu metod Qərbdə geniş yayıldı. (7)

"Ornitonim" - quş adlarını göstərən termindir. Ornitologiya isə zoologiya elminin onurğalıları öyrənən bölümü olub quşları tədqiq edən sahəsinin adıdır. Bu elm sahəsinin adı yunan mənşəli iki sözün birləşməsindən formalaşmışdır. Belə ki, yunan dilində ornis sözü "ornithos" quş sözünün yiyəlik halında işlənmiş formasıdır, loqos sözü isə elm mənasını ifadə edir. Bu elm sahəsində ayrı-ayrı quşlar, onların əlamətləri, biocoğrafiyası, miqrassiya xüsusiyyətləri, populiyasiya biologiyası və s. kimi məsələlər araşdırılır. Ornitologiyada "ev quşları", "yırtıcı quşlar", köçəri quşlar", "ov quşları" kimi terminlərin işləndiyi müşahidə olunur. Ornitonim termini sadalanan bu mənaları özündə cəmləşdirir. "Ornitomorfizm" isə "ornitonimlərin" metaforik və leksik-semantik variantıdır.

"İnsektomorfizm" həşərat adlarının zoomorfik adlarıdır.

"İxtiomorfizm" məcazi anlamda işlənən balıq adlarını ifadə edən termindir.

"Qerpetomorfizm" sürünənləri səciyyələndirən termini bildirir.

Zooleksikanın yaranması və formalaşması zooleksemlərin sayı ilə əlaqəlidir. Başqa sözlə desək, müxtəlif mikrosistemlər birliyi birlikdə zooleksikanı əmələ gətirir.

Dilçilikdə lüğət tərkibinin bitki adları ehtiva edən leksik qatına fitonimlər, fitosemizmlər, fitonimik vahidlər, floristik vahidlər və s. kimi terminlərlə göstərirlər. Dilin bu leksik qatı onomastikanın adlar qrupuna da daxil edilir. (9, səh.402)

Floristik leksik vahidləri ifadə etdiyi adların xarakterinə əsasən ümumi və xüsusi olmaqla iki qrupa ayıra bilərik. Misal olaraq, Azərbaycan və ingilis dillərində ən çox istifadə olunan "ağac-tree" sözünü bu fəsiləyə aid olan əksər ağacların ümumi adını göstərdiyi kimi, onun müxtəlif növlərinin də adının bildirilməsində iştirak edir.

Bundan başqa Azərbaycan dilində ümumi növ adı kimi gül, ot, kol, tərəvəz, göyərti, meyvə və s. bitki adları ilə yanaşı həmin növə aid olan bənövşə, quşəppəyi, qarağat, pomidor, şüyüd, alma və s. adlar da istifadə olunur ki, bunlar da ayrı-ayrı konkret bitkiləri adlandırmaq funksiyası daşıyır. Bu səbəbdən də hər hansı bir sahəyə aid olan söz qruplarının termin olaraq adlandırılması qanunauyğun və elmi nəticə kimi qəbul edilməlidir. Fitonimlər eyni zamanda müxtəlif elm sahələrində xüsusi funksiya daşıyaraq, bu və ya digər bir anlayışın adlandırılmasına xidmət göstərir və buna görə də dilçilikdə floristik sözlərin həm də "fitonimik terminoloji leksika" adlandırılması o qədər də təəccüblü görünmür.

Müxtəlif ixtisas və peşə sahələrində spesifik adlandırılaraq işlədilən bitki adları dildə termin və ya ixtisas sözlər kimi qəbul olunur. Dilin leksik sistemində ayrıca yeri olan bütün onomastik terminlərdə kimi fitonimik adların da özünəməxsus cəhətləri vardır. Həmin xüsusiyyətlər bunlardır: 1) başqa söz yaratması 2)məcaziliyin olmaması 3)emosionallıqdan məhrum olması 4)bir çox hallarda sinoniminin olmaması 5) çoxmənalılığa malik olması (9, səh.29)

Bu və ya digər dillərdə aşkar olunmuş bir bitki növü mövcud olmadığı digər dillərə məhz latın dili vasitəsilə keçir. Bu cür fitonimlər istər ingilis, istərsə də Azərbaycan dilində xeyli aktiv istifadədir. Məs., oleandr (oleander), kakao (cacao), qardeniya (gardenia), kamelia (camellia), berqamot (bergamot), jenşen (ginseng), bambuk (bamboo) və s.

Bütün fitonimlər müqayisə olunan hər iki dildə fərqli prinsiplərə əsasən tədqiq olunurlar. Tədqiqatçılar sözügedən prinsipləri bu şəkildə qeyd edirlər: 1) işlənmə dairəsinə görə fitonimlər 2)mənşəyinə görə fitonimlər 3) qoxusuna görə fitonimlər 4)rənginə görə fitonimlər 5)forma və ölçülərinə görə fitonimlər (10, səh. 40)

Dilin leksik qanunauyğunluqlarına görə digər leksik vahidlər kimi fitonimik adlar da ümumişlək və ümumişlək olmayan fitonimlər olaraq iki yerə ayrılır. Ümumişlək hesab edilən fitonimlərin semantik mənası hər kəs tərəfindən asanlıqla başa düşülən fitonimlərdir. Məsələn Azərbaycan dilində novruzgülü, yasəmən, çobanyastığı, reyhan, yemişan, quşüzümü, çinar, nanə, söyüd, çətənə, qərənfil, mollabaşı, ənginar, əzvay, dəvədabanı, kaktus, fıstıq, xardal, ayıdöşəyi, zəfəran, pişikotu, qatırquyruğu və s. ingilis dilində isə daffodil, thistle, lily, corn, violet, aster, lettuce, carnation, və s.

Ümumişlək fitonimlərə nisbətən ümumişlək olmayan floristik adların işlənmə dairəsi xeyli məhduddur. Ümumişlək olmayan fitonimik adlara müxtəlif ixtisas sahələri ilə bağlı terminlər və dialekt kimi işlənən fitonimlər aid edilir. (9, səh.28)

Fitonimlərin əksəriyyəti dilin özünəməxsus daxili ehtiyatı hesabına yaranır, bir qismi isə başqa dillərdən alınır. Misal olaraq, Azərbaycan dilində bir çox fitonimik adlarda və flora ilə bağlı digər leksik vahidlərdə onlara xas hər hansı spesifik əlamətləri açıq-aydın müşahidə etmək mümkündürsə, digərlərində bu əlaqəni müəyyənləşdirib aşkar etmək bir qədər çətin olur. Yəni istər düzəltmə istər mürəkkəb və ya söz birləşməsi şəkilində olan fitonimlərdə əvvəlki sözün semantikası əsas götürülməklə yeni yaranan floristik vahidin məna etibarilə həmin sistemə aid

olmasının əsas şərti hesab olunur. Beləliklə, dildə eyni nüvə söz əsasında əmələ gələn fitonimik adların sayı artmış olur.

Yeni yaranan fitonimlər isə bir çox hallarda əvvəlki söz kökü və ya nüvə sözlə məna bağlılığını itirməyib yeni çalarlar əldə edir, eyni fəsiləyə məxsus olan floristik adların yaranmasına səbəb olur. Misal olaraq, Azərbaycan dilində geniş işlənən və müəyyən bir bitki fəsiləsinin ümumi adı olan "ağac" sözü vasitəsilə bu gün dilimizdə bir sıra düzəltmə, mürəkkəb və söz birləşməsi şəkilində olan yeni leksik vahidlər yaranmışdır ki, bunların da bir çoxu birbaşa nüvə söz funksiyasında çıxış edən "ağac" sözü ilə əlaqəlidir: ağacdələn, şam ağacı, ağaclıq, palıd ağacı, qayınağacı və s.

İngilis dilində "ağac" sözünün etimologiyası fərqli semantik məna ilə əlaqəli izah edilir və "tree" sözünün mənşəcə latın sözündən olan və "bərk, möhkəm" mənalarını ifadə edən "durus" sözü ilə əlaqəli olduğu göstərilir. (11, səh.140-141)

İngilis dilində Azərbaycan dilindən fərqli olaraq təyinedici funksiyada çıxış edən "ağac" anlayışını bildirmək üçün başqa bir leksik vahiddən də istifadə edilir. Yəni təyinedici söz kimi, ingilis dilində "tree" sözü ilə yanaşı "wooden" (taxta) sözü də istifadə olunur ki, bu da həmin məfhumun taxtadan yaradıldığını bildirir və ya mürəkkəb sözün tərkib hissəsi kimi təsir obyektini, material əsasını əks etdirir. Misal olaraq, wooden plate - taxta boşqab, woodpecker - ağacdələn, woodcutter - ağacqıran və s.

Azərbaycan və ingilis dillərində yer alan bir sıra floristik vahidlərin müşahidəsi və tədqiqi göstərir ki, onların əmələ gəlməsində həmin bitkilərə xas hər hansı bir əlamət əsas götürülür və həmin keyfiyyətə əsasən bitkiyə ad verilir. Bu baxımdan müqayisə edilən hər iki dildə müəyyən bitki adlarının etimoloji təhlilinə nəzər salmaq lazım gəlir. Bu, eyni zamanda müqayisə edilən dillərin floristik adlar sistemi ilə bağlı geniş təsəvvür yaratmağa imkan verir.

**Турабова Айнур**

## РЕЗЮМЕ

## МЕСТО ЗООНИМОВ И ФИТОНИМОВ В ЛЕКСИЧЕСКОЙ СИСТЕМЕ

В культуре этико-философских воззрениях и фольклоре народов мира достаточно черт, сходных или кажущихся похожими друг на друга.Фитонимы и зоонимы- названия растений и животных-являются одним из факторов,что подобные сходства отражают их характер.В мире почти нет языка или народа, которые бы не использовали названия растений и животных.Как и в случае с азербайджанским языком словарный запас английского языка на протяжении всего своего развития тесно взаимодействовал с определенными экстралингвистическими факторами.Эти факторы отражают весьма широкие реалии, начия с природно- географических условий страны, влючая флору и фауну.

По этой причине большое значение имеет изучение флористической и зоологической лексики, занимающей особое место в лексике английского и азербайджанского языков.Зоонимы фитонимы составляют соотвественно

зоологическую и фитонимическую лексику языка.Следует отметить, что названия растений и животных изучаются в ономастике, которая развивается как самостоятельная отрасль языкознания.Фитонимы и зоонимы аналогичны другим ономастическим единицам.В этой области возникли разные концепции.Наиболее изученными из фитонимов являются лекарственные растения, которые уже много лет используются при лечении заболеваний.Например:гвоздика, анис, мята, можжевельник, рифмовка, укроп, алтай, корица, крапивница, тмин и так далее. В настоящее время область исследования фитонимов значительно расшириласть. В лингвистике связанной с этой областью уже написано множество научных работ.Фитоним – греческое слово образованное от сочетания слов “фитос “ –растение и оним-имя.Изучения фитонимов и их характеристик- одно из важных научно-исследовательских направлениий привлекающих внимание лингвистики.Каждое имя в языке является продуктом общесвенно-исторического развития.

**Ключевые слова:**зоонимы, фитонимы,зоометафория, зоосемия, ономастика, зооморфия.

**Turabova Aynur**

**THE PLACE OF ZOONYMS AND PHYTONYMS
IN THE LEXICAL SYSTEM**

**SUMMARY**

The are enough feautures in the culture, ethical-philosophical views and folklore of the peoples of the world are similar to each other or seem similar to each other. Phytonyms and zoonyms are the names of plants and animals. There is almost no language or people in world that doest not use the name of plants and animals.

As in the case of Azerbaijani language, the vocabulary of the English language has closely interacted with certain extralinguistic factors throughout its development.These factors reflect very broad realities,starting from the natural-geographical conditions of the country,including flora and fauna .

For this ,the study of floristic and zoological lexicon,which has a specific place in the vocabulary of the English and Azerbaijani languages, is a great importance. Zoonyms and phytonyms make up the zoological and phytonymic lexicon of the language,respectively.It should be noted that the names of plants and animals are studied in onomastics,which is developing as an independent branch of linguistics. Phytonyms and zoonyms stand in the same row as other onomastic units of emotionality,expressiveness.

Different concepts have emerged in the field. The most studied phytonyms are medical plants,which have been used for the treatment of certain diseases for many years.For example:clove,anise, mint,juniper,rhyme,dill,altai,cynamon,urtica and so on.Currently, the field of phytonyms research has expanded considerably.Many scientific works have already been written in linguistics related to this field .Phytonym is a Greek word derived from the combination of the words “phytos”-

plant and "onim"-name. The study of phytonyms and their characteristics is one of the important scientific-research fields that attract attention in linguistics.Each name in the language is a product of socio-historical development.

**Keywords:** zoonims,phytonyms,zoometaphor, zoosemiya ,onomastica, zoomorphy.

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti, I-IV c., "Elm", Bakı, 1966-1987
2. Adilov M.İ., Azərbaycan zoonimləri haqqında - ADU-nun "Elmi əsərlər"i (Dil və ədəbiyyat seriyası), Bakı 1979, N:2, səh 14-20
3. Adilov M., Azərbaycan onomastikası, ADU, Bakı, 1987
4. Budaqov B.Ə., Türk uluslarının yer yaddaşı, "Elm", Bakı, 1994
5. Qurbanov A.M., Azərbaycan onomalogiyası məsələləri, APİ nəşri, 1986
6. Лясота Ю.Л. Английская зоосемия. Изд-во Дальневосточного Университета, Владивосток, 1984, -114 с.
7. https://www.therapydogs.com/animal-assisted-therapy/
8. Qurbanov A., Azərbaycan dilinin onomalogiyası, Bakı, 1988
9. Sadıqov Ş., Nəcəfov E., Əsədov A., Azərbaycan dili, Bakı, Çaşıoğlu, 2009
10. Hacıyeva A. A., Türk və Azərbaycan dillərində gül adları
11.Меркулова В.А. Очерки по русской народной номенклатуре растений. Москва, 1967

**Redaksiyaya daxil olma tarixi: 10.04.2024**
**Çapa qəbul olunma tarixi: 24.04.2024**
**Filologiya üzrə fəlsəfə doktoru dosent Sevinc Səlimova tərəfindən çapa tövsiyə olunmuşdur**